Azərbaycan.- 2021.- 21 aprel. S. 8.

# İtaliya-Azərbaycan əməkdaşlığı Avropanın Şərq əlaqələri üçün paradiqma dəyişikliyi yaradır

**Məlum olduğu kimi, 2020-ci il fevral ayının sonlarında - İtaliyanın COVID-19 səbəbindən tətbiq edilən qapanmaya gedən ilk Avropa ölkəsi olmasından bir neçə gün əvvəl Azərbaycanın dövlət başçısı İlham Əliyev İtaliya Prezidenti Sergio Mattarella ilə ikitərəfli danışıqlar aparmaq üçün Romaya səfər etmişdir. Səfər çərçivəsində imzalanan Çoxtərəfli Strateji Tərəfdaşlığın Gücləndirilməsi üzrə Birgə Bəyannamə iki ölkə arasında son dərəcə perspektivli ticarət əlaqələrinin təməlini qoymuşdur.**



Ənənəvi enerji ticarətindən bəhrələnən İtaliya və Azərbaycan taktiki birliyi artıq müdafiə, infrastruktur və qarşılıqlı sərmayə qoyuluşunu da əhatə edən daha bütöv bir ticarət tənzimləməsini əhatə edir. Bir çox mütəxəssislər indi İtaliyanı Azərbaycanın Avropada ən öndə gedən müttəfiqi sayırlar.

Azərbaycanın neftlə zəngin Abşeron yarımadası min illərdir tacirləri özünə cəlb edir. Müasir Azərbaycan ərazisindən keçərək etdiyi səyahətləri İl Milionda təsvir edən böyük italyan səyyahı Marko Polonun xatirələrində Azərbaycana istinad etdiyi güman olunur. Azərbaycan əsrlərboyu ən güclü ticarət əlaqələrini bu yarımadadan başlayaraq qurub.

"Cənub qaz dəhlizi" (CQD) Gürcüstan, Türkiyə, Yunanıstan və Albaniyadan keçərək Azərbaycan qazını İtaliyanın Brindisi sənaye limanındakı son təyinat nöqtəsinə çatdırır. Tikintisi keçən il tamamlanan dəhlizin son hissəsi - Trans-Adriatik Boru Kəməri (TAP) ötən il dekabrın 30-da Azərbaycandan ilk dəfə olaraq təbii qazı İtaliya sahillərinə nəql etmişdir.

TAP İtaliya-Azərbaycan enerji ticarətinin təməl sütununu təşkil edən və İtaliyanı Azərbaycanın əsas ticarət tərəfdaşına çevirən möhtəşəm layihədir. Xatırladaq ki, 2019-cu ildə iki ölkə arasındakı ticarət dövriyyəsi 6 milyard dollar təşkil edib və həmin ildə İtaliyanın aldığı qazın 17 faizi Azərbaycanın payına düşüb. CQD-nin bu əlaqəni daha da genişləndirəcəyi və hər il İtaliyaya 10 milyard kubmetr Azərbaycan qazını ötürəcəyi gözlənilir.

Avropa Komissiyası tərəfindən irəli sürülən CQD qaz mənbələrini şaxələndirərək Avropanın Rusiya və Şimali Afrika qazından asılılığını azaltmağı hədəfləyir. Rusiya 2018-ci ildə Avropa İttifaqının (Aİ) ümumi qaz idxalının 40 faizini təmin edərək Aİ-nin ən böyük xarici təchizatçısı olaraq qalır. Aİ, xüsusən İtaliya üçün CQD Şərqdə yeni bir alternativ marşrutdur. Azərbaycan üçün isə CQD İtaliya vasitəsilə Avropa ilə daha da yaxınlaşmaq üçün unikal imkandır.

Təsadüfi deyil ki, ötən ilin sentyabrında başlayan Dağlıq Qarabağ münaqişəsini həll etməkdə İtaliya Azərbaycana kömək edən ilk Avropa ölkəsi oldu.

Bakının Azadlıq meydanında keçirilən Qələbə paradına fəxri qonaq kimi dəvət edilən Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında münaqişənin sona çatmasına kömək edən Türkiyə beynəlxalq səviyyədə böyük nüfuz qazandı. Avropada isə Azərbaycana Qərbin səssiz dəstəyini qazanmağa kömək edən İtaliya oldu. Azərbaycan və Ermənistan arasındakı gərginliyin sülh yolu ilə həll olunmasını təşviq etmək üçün yaradılan çoxtərəfli qrupun - ATƏT-in Minsk qrupunun üzvü olaraq İtaliya suverenlik, ərazi bütövlüyü və milli sərhədlərin toxunulmazlığı prinsiplərini müdafiə edir. Məhz bu üç prinsip Azərbaycanın münaqişənin həlli üçün əsas gətirdiyi beynəlxalq hüququn ana xətti idi. Məhz həmin prinsiplər Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsinə beynəlxalq etimadın göstərilməsinə kömək etdi.

Azərbaycanla mövcud enerji əlaqələri barədə kifayət qədər məlumatlandırılmasına baxmayaraq, İtaliyanın hərəkətə keçmək qərarı ikitərəfli razılaşmalarda yeni bir mərhələ açdı. Əvvəllər İtaliya ilə Azərbaycan arasında sadəcə bir iqtisadi münasibət olduğu halda, indi güclənən tərəfdaşlığın əsasını təşkil edə biləcək siyasi bir ittifaq mövcuddur. Münaqişənin həllində iştirakına görə İtaliya ilə Qarabağda enerji infrastrukturu müqaviləsinin bağlanması da bunun nəticəsidir. 2020-ci ilin dekabrında imzalanan saziş sayəsində İtaliya Azərbaycanın azad edilmiş ərazilərində enerji infrastrukturunun yaradılmasına öz töhfəsini verəcəkdir.

*İtaliyanın Azərbaycanla dostluq nümayiş etdirmək istəyinin Aİ regionu üçün daha geniş təsirləri ola bilər. Avropadakı siyasi liderlər Rusiyadan enerji asılılığına alternativləri araşdırmaqda maraqlıdırlar. Xüsusilə geopolitik mənzərə ABŞ-ın yeni Prezidentinə uyğunlaşdıqca, Qərb güclərinin yeni alternativ axtarışında olmaları mümkün görünür. Azərbaycan üçün bu, doğru zamanda doğru yerdə olmaq imkanı ola bilər.*

**Patrik LANDAU,**
***dünyanın enerji, nəqliyyat və müdafiə sektorlarında çalışan bir sıra iri şirkətlərinə konsultasiya xidməti göstərən***
**Maydex AG şirkətinin rəhbəri**